**D.İ.Allahverdiyev**
**i.f.d, dos.**
**AMEA İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi**
**E-mail:dagbeycahani@gmail.com**

**UOT: 332.024; JEL:L21;N12;K11.**

# Makroiqtisadi meyarlar və mövcud siyasi-iqtisadi reallıqlar

**Xülasə**

Tədqiqatın məqsədi - məqalədə ölkənin siyasi-iqtisadi təminatı və insan rifahının davamlı artım istiqamətləri və davamli milli sərvətin inkişaf etdirilməsinin tədqiqidir. Makroiqtisadi inkişaf və sosial-iqtisadi tərəqqisinin əsas istiqaməti kimi elm-təhsildə vətəndaş rifahına təminat məsələləri araşdırılmışdır. Təhlildə mövcud şəraitdə ölkənin siyasi-iqtisadi vəziyyəti və tərəqqini səciyyələndirən meyyarların əsas makroiqtisadi göstəriciləri tədiq edilmişdir. Tədqiqatın metodologiyası, müqayisəli və analitik təhlil əsasında araşdırılmışdır. Tədqiqatın əhəmiyyəti, məlum olduğu kimi xarici iqtisadi əlaqələr ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan faktorlardan biridir və ümumi daxili məsulun artımı ilə səciyələnir. Bununla əlaqədar olaraq araşdırmada, xarici iqtisadi əlaqələrdə iqtisadi təhlükəsizliyin nəzəri metoloji əsasları və dünyanın bəzi ölkələrinin iqtisadi inkişaf təcrübəsinin təhlil edilməsinə səy göstərilmişdir.

**Açar sözlər:** elm innovasiya, iqtisadi siyasət, insan rifahı və davamlı tərəqqi.

## Giriş

Azərbaycanda xarici iqtisadi münasibətlər, uzun müddət "dəmir pərdələrlə" örtülmüş Sovetlər İttifaqında iqtisadiyyatın bir sahəsi kimi mövcud olmuşdur. Belə ki, mərkəzdən icazəsiz xarici siyasi-iqtisadi əlaqə qura bilməyən dövlətlər, müstəqilliyə nail olduqda yeni siyasi-iqtisadi əlaqələr yaratmaqla tərəqqi istiqamətində çalışmışdılar. Beləliklə Azərbaycan iqtisadiyyatının keçimiş ittifaqdan miras qalan strukturu, müstəqil bir ölkənin milli iqtisadiyyatının tələblərinə cavab verməməsi ilə yanaşı, dünya iqtisadiyyatına inteqrasiya və ölkənin iqtisadi müstəqilliyinin təmin olunmasında çətinliklər yaratmışdır. Mövcud xarici iqtisadi əlaqələrdə makroiqtisadi sabitlik milli təsərrüfatın ümumi mənzərəsini əks etdirən iqtisadi münasibətlərin artım tempini məcmusu kimi səciyələnir. Ölkənin iqtisadi tərəqqisi, xarici ticarət dövriyyəsinin həcmi və sosial-iqtisadi fəaliyyət istiqamətlərinin əhatəliliyi ilə ölçülür və iqtisadi artım tempi əsasən mənfətli sahələrdən olan idxal-ixracın artımı ilə səciyələnir.

## Makroiqtisadi inkişafda əldə olunan uğurlar

Dövlətin siyasi-iqtisadi mənzərəsinin tərəqisini səciyyələndirən iqtisadi meyyarlar öz əhəmiyyətliliyi ilə çıxış edir. Bir çox iqtisadçılar bu mənzərəni makroiqtisadi göstəricilər adlandırıllar. Misal üçün: Milli sərvət, Milli gəlir, Xalis milli məhsul, Ümumi milli məhsul, Ümumi daxili məhsul dövlət və cəmiyyətin sosial-iqtisadi rifah təminatını yaxşılaşdıran ən mühüm meyyarlar hesab edilir. Beləliklə, ölkənin təbii sərvəti və iqtisadi potensial imkanı yetərli olmalıdır (1). Qeyd etmək lazımdır ki, Markıs və Keyns milli iqtisadiyyatın əsas meyyarlarını maddi istehsalda yaranmış mənfət əsasında hesablanmsını əsaslandırmışlar. Belə yanaşma A.Smitin təlimində də mövcud iqtisadi pirinsiplərlə izah edilmişdir. Lakin Smit hesab edirdi ki, milli təsərrüfata sərf olunan qüvvə məhsuldar maddi mənfət yaradır. Qeyd edilən fikirlərə əsasən dövlətdə və cəmiyyətdə maddi mənfət istehsalı meyyarı kimi gəlirli məhsulu şərtləndirən Məcmu İctimai Məhsulun (MİM) mənfət artımı kimi səciyələnir. Lakin Məcmu İctimai Məhsul isə il ərzində maddi istehsaldan qazanılan mənfətin miqdarı hesab edilir (3). Buradan belə bir fikir formalaşır ki, Məcmu İctimai Məhsul ümumi təsərrüfatdan əldə edilən məhsul meyyarlarının cəmini təşkil edir. Belə ki, MİM-un hesablanmasıda ona sərf edilmiş istehsal xərclərin ümumi gəlirlərə əlavə etməklə, gəlir və xərclərinin nisbəti kimi də ümumiləşdirilir. Yəni qeyri bərabərliyin bərabərliyə çevirilməsi meyyarı üstünlük təşkil edir. Bununla yanaşı müasir siyasi-ictimai şəraitdə milli iqtisadiyyatın yeni meyar

təsnifatının təhlilini şərtləndirir. Belə ki, ümumi faydalı və qiymətli nə varsa, maddi istehsalda və təbii sərvətdən yaranır. Bunun nəticəsi kimi ictimai məhsul üç istehsal meyyarını torpaq, istelak və kapital artımının sayəsində səciyələnir. Müstəqil Azərbaycan ildən-ilə güclənir, sürətlə inkişaf edir. Aparılan iqtisadi siyasət sayəsində Azərbaycanın makroiqtisadi inkişafında dayanıqlıq təmin edilib və bir çox dövlətlərin uzun müddət ərzində əldə edə bilmədiyi yüksəliş tempinə nail olunub. Bu gün iqtisadiyyatda əldə edilmiş sıçrayışlı inkişafın və çoxsaylı nailiyyətlərin nəticəsi olaraq Azərbaycan keyfiyyətcə yeni pilləyə - modernləşmə mərhələsinə qədəm qoyub. Ötən əsrin sonlarında Azərbaycan mürəkkəb tarixi dövr yaşasa da, sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir. Vergi siyasəti makroiqtisadi inkişada mühüm rol oynayır və bu siyasət üçün müəyyən edilmiş istiqamətlərdən birincisi, idxal məhsullarının yerli istehsal məhsulları ilə əvəzlənməsi, sənayeləşmənin daha da inkişafı üçün effektiv vergi tənzimlənmələrinin həyata keçirilməsidir. Mütəmadi aparılan təhlillər ölkənin hansı məhsulların idxalından asılılığının mövcudluğunu və həmin məhsulların ölkədə istehsalının həcminin artırılması üçün nə kimi iqtisadi təşviq alətlərinə ehtiyac olduğunu müəyyən edir. Bu tənzimləmə alətlərindən biri də vergi təşviqləri olduğuna görə, qarşıdakı dövrdə yerli istehsalın təşviqi ilə bağlı vergi tənzimləmələri həyata keçiriləcək. Bununla yanaşı, maliyyə və kapital bazarlarının inkişafının da vergi yolu ilə tənzimlənməsi və təşviqi nəzərdə tutulur. Maliyyə və kapital bazarları nə qədər çox inkişaf etsə, bir o qədər real sektorun inkişafına dəstək verə bilir. Ona görə də ölkəmizdə müasir maliyyə alətlərinin inkişafı üçün vergi təşviqlərinin, vergi

tənzimləmələrinin verilməsi də planlaşdırılır. İnvestisiyalar üçün əlverişli vergi şərtləri tətbiq ediləcək və digər fiskal stimullar veriləcək.

İşğaldan azad olunmuş ərazilərdə, həm də iqlim şəraiti nəzərə alınmaqla Azərbaycanın turizm potensialı olan regionlarında turizmin inkişafı, bu sektorun sabit xərclərinin azaldılması və bunun vergi yolu ilə tənzimlənməsi vergi islahatlarında daha bir istiqamət olacaq. Son bir neçə ildə həyata keçirilən islahatların ayrılmaz tərkib hissəsi, bəlkə də aparıcı istiqaməti "kölgə iqtisadiyyatı"nın azaldılması ilə bağlı həyata keçirilən tədbirlərdir. İqtisadiyyatın şəffaflaşması, şaxələnməsi və investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı vergi siyasətinin tətbiq olunması davam edəcək. "Kölgə iqtisadiyyatı" ilə mübarizə bir ildə həyata keçirilən və növbəti ildə yekunlaşan bir proses deyil. Hər il vergi qanunvericiliyində də, vergi inzibatçılığında da həyata keçirilən bütün islahatlarda şəffaflaşmanın artırılması və haqsız rəqabətin qarşısını almaq məqsədi daşıyan təkmilləşdirmələr aparılır ki, bunların da əsas hədəfi "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması, qanunsuz sahibkarlıqla mübarizənin genişləndirilməsidir. Bu tədbirlər isə yalnız cəza siyasəti, yaxud müxtəlif sanksiyaların artırılmasını nəzərdə tutmur. Burada daha çox rəqəmsallaşma, üçüncü şəxslərdən, yəni ayrı-ayrı subyektlərdən məlumatların toplanması, onların keyfiyyətli rəqəmsal emal olunması yolu ilə mümkün qədər vergidən yayınmaların, vergilərin minimallaşmasının qarşısının alınması ilə bağlı tədbirlərdir. "Azərbaycanın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda şəffaflıq səviyyəsinin artırılması üçün vergi siyasətində rəqəmsallaşmanın genişləndirilməsi və dövrün sonuna rəqəmsal vergiyığma üzrə əhatəliliyin (təqdim edilmiş qaimə-faktura və onlayn kassa üzrə dövriyyələrin cəminin bəyan edilmiş dövriyyəyə nisbəti) xüsusi çəkisinin 75 faizdən çox olması nəzərdə tutulub. Ölkədə aparılan iqtisadi siyasət, iqtisadi prioritetlər əsas götürülməklə yanaşı, vergi sahəsində beynəlxalq tendensiyalar da diqqət mərkəzindədir. Bu baxımdan transmilli şirkətlərin dünyanın ayrı-ayrı yerlərində vergilərin ödənilməsi, vergidən yayınmanın, verginin bir ölkədən digərinə daşınmasının qarşısının alınması ilə bağlı beynəlxalq təcrübə araşdırılır. Bu sahədə tətbiq olunan müasir alətlərin milli vergi qanunvericiliyində öz əksini tapması bundan sonra da təmin olunacaq. Dövlət ortamüddətli dövr ərzində əmlak və kapital amnistiyası verməklə uçotdan yayındırılmış, gizlədilmiş aktivlərin və əmlakların bəyan edilməsinə şərait yaradacaq islahatları da nəzərdən keçirir. Bu kapitalın amnistiya prosesindən keçməklə şəffaflaşdırılması, uçotdan gizlədilmiş əmlakların bəyan edilməsi üçün dövlətin amnistiya və bir sıra dövlət təminatlarını verməsi və növbəti dövrdə leqal iqtisadiyyatın həcminin artırılması ilə bağlı hədəflər mövcuddur. İqtisadiyyatın strateji sahələrinin inkişafının stimullaşdırılması, habelə investisiya və kapital qoyuluşu, həcminin artırılması üçün vergi təşviqi alətlərindən effektiv istifadə edilməsi nəzərdə tutulub. Vergi siyasətinin hədəfi özəl sektorun inkişafı, idarəetmə və şəffaflıq sahəsində islahatların davam etdirilməsi, həmçinin maliyyəyə çıxışın yaxşılaşması hesabına iqtisadi şaxələnmənin dərinləşməsi və iqtisadiyyatın şoklara dayanıqlılığının yüksəldilməsinə, ümumi iqtisadi prioritetlərlə uyğunlaşaraq qeyri-neft sahəsində, xüsusilə sənayedə yerli istehsalın həcminin artırılmasına və yeni iş yerlərinin yaradılmasına xidmət edəcək. Azərbaycan 2022-2030-cu illəri əhatə edəcək yeni strateji inkişaf mərhələsinə daxil olub. Ölkənin ərazi bütövlüyünün təmin edilməsi ilə səciyyələnən bu dövrdə qarşıda iqtisadi artımın daha dayanıqlı rayderlərlə hərəkətə gətirilməsi, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin innovasiya yönümlülüyünün, maliyyə dayanıqlılığının daha da gücləndirilməsi və azad edilmiş ərazilərin inteqrasiyası kimi yeni vəzifələr durur. Cəmiyyətin rifahı, ölkə iqtisadiyyatının qlobal dəyər yaratma zəncirinə inteqrasiyası, innovativ istiqamətin və milli iqtisadiyyatın maliyyə dayanıqlılığının gücləndirilməsi mühüm məqsədlərdəndir.

**Müasir dövrdə iqtisadi inkişaf və reallıqlar**

Ölkənin siyasi-iqtisadi fəaliyyəti, idxal-istehsal məsələləri və insan rifahına münbit şərait yaradılması iqtisadi artımın mövcus siyasi reallıqları səciyələndirir. İqtisadi artımı səciyələndirən əsas meryyarlardan hesab edilən ÜDM müəyyən dövr ərzində ölkə ərazisində istehsal olunan bütün məhsulun məcmusu hesab edilir. Bununla yanaşı sosial-iqtisadi göstəricilər, əhalinin hər nəfərinə hesablanan real ÜDM, bir nəfərə nisbətdə ümumi daxili məhsulun, xalis milli gəlir, ev təsərrüfatının artım tempi, tədqiqat və elmi işlərə yönəldilən vəsait, real valyuta məzənnəsi, innovasiyalar, iqtisadiyyatın enerji artımı, məşğulluq səviyyəsi, iqtisadi fəaliyyət növlərinin daha əhatəli edilməsinin əksi hesab edilir. Sosial-iqtisadi göstəricilər təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyat tərzində öz əksini tapmalı və iqtisadi tərəqqi güclü sosial-iqtisadi siyasət nəticəsində formalaşır. Lakin ümumi milli məhsul son məhsuldan ibarət olub milli miqyasda bölüşdürülür və istifadə olunur. Beləliklə qeyd edilən fikirlərin məntiqi nəticəsi ÜMM və ÜDM bütün təsərrüfat məcmusu kimi cəmiyyətin sosial-iqtisadi rifahına və vətəndaşın gəlirlərinin artımını şərtləndirir. Belə meyarlardan biri də mülküyət münasibətlərində sosial-iqtisadi rifah təminatını səciyələndirir. Bu meyarlar Azərbaycan konstitusiyasında aşağıdakı kimi daha əhatəli şərh edilmişdir. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Beləliklə siyasi-iqtisadi şəraitdə dövlət mülkiyyət hüququ, əsas sosial-iqtisadi rifaha təminatı yaradan maddi ehtiyatların mühüm hissəsi kimi dövlət mülkiyəti hesab edilir. Bununla yanaşı istehsal, sosial-iqtisadi və s. təyinatlı müəssələrin əsas hissəsi dövlətə məxsusdur. Bu meyarlar isə təbi hadisələrlə qarşılaşdıqda hər bir dövlətin siyasi-iqtisadi təhlükəsizliyini qorumaq üçündür. Belə ki, dövlət iqtisadi idarəçilik siyasətindən asılı olaraq bütün ölkələrdə vətəndaşların rəsmi ictimai-siyasi təsiri və münasibətləri eyni deyildir. Bu səbəbdən də bütün hallarda dövlət hər bir vətəndaş üçün məsuliyyət, siyasi-hüquqi və sosial-iqtisadi haqlar yaradır (1). Siyasi-iqtisadi cəhətdən müstəqil qərar qəbul edən subyekt dövlət və vətəndaş qarşısında məsuliyyət daşıyır. Bununla da dövlət siyasi-iqtisadi, sosial, maddi, mənəvi resursları kimi çıxış edərək mülkiyyətçi funksiyasını icra edir. Belə ki, dövlətə məxsus olan mülkiyyət bütün ölkə vətandaşlarının ümumi sərvəti hesab olunur və cəmiyyətin sosial-iqtisadi tərəqqisinə xidmət edir. Qeyd edilənlər dövlətin təmin etməli olduğu sosial-iqtisadi funksiyası kimi ifadə olunsada, səlahiyyətdən sui istifadə, vətəndaşın hüquq və azadlığının məhdudlaşması və ölkənin konstitusiyonal qurluşuna qəsd kimi səciyələnir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasında qeyd edilir ki, hakimiyyətin mənimsənilməsinə yol verilməməsi, Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Möhtərəm prezdent İlham Əliyev qeyd edir ki, qərarlar həqiqətə uyğun olmalıdır. Ümumiyyətlə, həyatda hər şey vicdan əsasında olmalıdır. Ədalətsizlik olmamalıdır, qərarlar həm insanlarda dövlətə inamı artırmalı və həyatımızı tənzimləməlidir. Əhalinin minimum yaşayışını, aztəminatlı ailələrin sosial rifahını təmin edən tədbirləri, təqaüdçülərin, tələbələrin və əhalinin təbəqələrinin sosial müdafiəsi məsələlərini dövlət tərəfindən həll etməsi zəruri olan meyar kimi səciyələnir. Azərbaycan Respublikasına mülkiyyət hüququ iqtisadi reallığın tərkib hissəsi kimi dövlət mülkiyyətidir. Dövlət mülkiyyət hüququ dedikdə, dövlətin mənsub olduğu əmlak üzərində sahiblik, istifadə və sərəncam vermək hüququdur. Beləliklə digər subyektiv hüquqlar kimi dövlət mülkiyyət hüququ da müəyyən hüquq münasibəti çərçivəsində yaranır, bu və ya digər maddi dəyərlərin idarəçiliyi sahəsində konkret səlahiyyətləri xarakterizə edir. Dövlət mülkiyyətçisinin səlahiyyətləri həm mülki hüquqların vahid subyekti tərəfindən, həm də dövlət əmlakının bir hissəsinə malik olan hüquqi şəxsləri tərəfindən həyata keçirilir. Burada mülkiyyətçi ilə dövlət hüquqi şəxsləri arasında iqtisadi-hüquqi münasibətlərin yaranması iqtisadi artımı formalaşdırır. Dövlət mülkiyyəti iqtisadi

baxımdan əsas mülkiyyətçisi kimi əmlakın idarə edilməsində, hüquqi şəxslərin yaradılması, yenidən təşkili iqtisadi artımı şərtləndirən meyar kimi tənzimlənir. Azərbaycan Respublikasının dövlət maliyyə ehtiyatları hesabına yaradılmış və başqa dövlətlərin ərazisində yerləşən müəssisələr və ya onların sahələri də Azərbaycan Respublikasının dövlət mülkiyyəti hesab edilir. Beləliklə iqtisadi artıma daxil olan xüsusi mülkiyyət, hazırda aşağıdakı qeyd edilən meyarlarla vətəndaşların mülkiyyətinin mənbəyi kimi səciyələnir: şəxsi əməyə əsaslanan sahibkarlıq; sahibkarlıq fəaliyyəti; davamlı iqtisadi fəaliyyət. Belə ki, xüsusi mülkiyyətin bir növündən başqa növünə keçməsində qanun heç bir məhdudiyyəti yoxdur və əsasən sosial-iqtisadi effekt yaradan ümumi fəaliyyətin və kapital istehsalı dövlət tərəfindən həvəsləndirilir. Bununla da iqtisadi artımın şərtləri kimi bir şəxsin xüsusi mülkiyyəti bir neçə mənbədən formalaşması səciyəvidir. Belə ki, vətəndaş təqaüdçü kimi pensiya, muzdlu işçi kimi əmək haqqı, səhmdar kimi divident gəlirlərinə malik olması sosial-iqtisadi rifah təminatı kimi iqtisadi reallığı əks etdirir. Xüsusi mülkiyyət iqtisadi hüququn əsası mülki-hüquqi tənzimetmənin prinsiplərindən irəli gələn meyarlardır. Bu prinsip əsasən vətəndaş mülkiyyət hüququnu qəbul edən sərbəstlik prinsiplərini həyata keçirən məqsəd və vasitələrin ümumi meyarı və iqtisadi artımı şərtləndən ibarətdir. Mövcud şəraitdə məhsul istehsalı və ya onun istehlakı gəliri və ümumi iqtisadi mənfəti reallaşdırır. Bununlada mövcud siyasi-iqtisadi şəraitdə iqtisadi artımın şərtləndirən meyar kimi kapitalından maksimum səmərəli istifadə üçün mərkəzi icra orqanlarının strateji fəaliyyət istiqamətində əks olunur. İqtisadiyyatda və cəmiyyətdə mövcud sosial-iqtisadi şərait ölkədə alternativ və bərpa olunan enerji resursların səmərəliyinin artırılması zəngin iqtisadi ehtiyatların fəallığı kimi səciyələnir. Belə ki, dövlətin siyasi-iqtisadi və geoiqtisadi təhlükəsilik meyarı müasir şəraitdə ölkəmizin Türkiyə, Rusiya və İran kimi böyük dövlətlərin əhatəsində olması və siyasi-iqtisadi əlaqələrinin mövcudluğu, həmin qonşu dövlətlərin Azərbaycanın müstəqilliyinə heç də eyni mövqedə olmaması mövcud reallıq kimi səciyəvidir. Geosiyasi təhlükəsizlik şəxsiyyət, cəmiyyət və dövlətin təhlükəsizliyinə mövcud təhdidlərin qarşısının alınması, daxili və xarici vəziyyət, eləcə də beynəlxalq şəraitdə müqaisəli təhlil kimi səciyələnir. Belə ki, müasir şəraitdə ölkəmizdə informasiya cəmiyyətinin qurulmasında informasiya təhlükəsizliyinin təmin edilməsi prioritetlərini təşkil etməklə, bütövlükdə milli təhlükəsizlik siyasətinin elmi praktiki əhəmiyyətini özündə əks etdirir. Qeyd edilənlərin əsasında Heydər Əliyevin ölkənin siyasi-iqtisadi təhlükəsizliyin təmin edilməsində dövlətin daxili və xarici siyasətində milli maraqların reallaşmasının əsas prinsip kimi milli təhlükəsizlik siyasətinin milli maraqlar kontekisində öyrənilməsi məsələlərinə daimi qiqqət yetirmişdir. Milli təhlükəsizliyin təmin edilməsinin zərurəti kimi ölkənin müdafiə qüdrətinin gücləndirilməsi, ərazi bütövlüyünün möhkəmləndirilməsi, təxribat va terror hadisələrinin qarşısının alınmasnda ordu quruculuğunun möhkəmləndirilməsi mühüm əhəmiyyətə malikdir. Müasir dövrdə siyasi-iqtisadi, sosial təhlükəsizlik məsələləri, məhsuldar qüvvələr və istehsal münasibətlərinin xarakterinə, miqyasına və metodlarına görə bir-birindən fərqlənən müxtəlif dövlətlərdən ibarət qloballaşan dünya birliyində ölkələrin xarici iqtisadi əlaqələrin real əsası beynəlxalq geosiyasi təhlükəsizlikdir. Beynəlxalq iqtisadi mübadilə, məhsul istehsalı, ictimai əmək bölgüsünün davamı kimi əmtəə və xidmətlər xarici ticarəti və beynəlxalq siyasi-iqtisadi əlaqələrin əsasını təşkil edir. Dünya siyasətində mövcud olan qloballaşma şəraiti hər bir ölkənin beynəlxalq siyasi-iqtisadi əlaqələrin meyarı kimi səciyələnir. Bu səbəbdən də əlverişli coğrafi mövqeyi və zəngin enerji ehtiyyatları olan Azərbaycanın xarici geoiqtisadi əlaqələrində siyasi-iqtisadi təhlükəsizlik məsələləri, onun səmərəliliyi daima aktual olmuşdur. Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin mühüm məsələlərdən biri də Azərbaycanın və dünya siaysi-iqtisadi inteqrasiyasını uzlaşdırılması ilə səciyələnir. Beləliklə düşünülmüş xarici iqtisadi və geosiyasi xətti nəticəsində Azərbaycan ABŞ strateji tərəfdaşlığı və

əməkdaşlığın bərabər hüquqlu qarşılıqlı münasibətlərini yaratmışdır. Azərbaycan Respublikasının təhlükəsizlik, suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığı, milli mənafelərinin müdafiəsi, davamlı tərəqqini və əhalinin sosial rifah təminatını özündə əks etdirir. Belə ki, xalq üçün təhdid yarandığı zaman cəmiyyətin və dövlətin təhlükəsizliyinin təminat məsələsi aktuallaşır. Milli maraqlar və təhlükəsizlik anlayışı ölkənin xarici siyasi-iqtisadi fəaliyyəti ilə vəhdətdədir. Hər hansı bir dövlətin xarici siyasəti onun sosial-iqtisadi, ictimai-siyasi uğuru, ölkənin geoiqtisadi vəziyyəti, onun tarixi adət-ənənələri, müstəqillik və meyarları ilə müəyyən edilir. Dünya ölkələrində iqtisadi maraqlara və geosiyasi təhlükəsizlik məsələlərinə müxtəlif baxışlar və yanaşmalar mövcuddur. Müasir dövrdə dünya iqtisadiyyatında yeni yanaşmaları, yüksək texnologiyaların inkişaf etdirilməsini, bilik və peşəkarlıq səviyyəsinin yüksəldilməsini şərtləndirir. Belə şəraitdə insan rifahının təmin etdirilməsi, insanların bacarıq və istedadlarının real sosial-iqtisadi proseslərdə göstərə bilməsidir. Yeni bilikləri mənimsənilməsi və öz peşəkarlıq səviyyəsini artırmaqla, cəmiyyət və iqtisadiyyatın inkişafı üçün daha çox mənfət və intellektual potensial yaratmaq mümkündür. Beləliklə cəmiyyətin və milli iqtisadiyyatın inkişafının intensivləşdirilməsi kimi zəruri məsələlər səciyəvidir. Bu istiqamətlərdə ölkəmizdə müvafiq dövlət proqramları və işlək fəaliyyət mexanizmləri formalaşdırılmışdır. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası insan kapitalının formalaşması və inkişaf istiqamətləri ilə əlaqəli konseptual elmi yanaşmaları şərtləndirmişdir. Konsepsiyada qeyd edilir ki, insan kapitalının inkişafı sahəsində ölkədə əhalinin keyfiyyətli təhsil xidmətləri ilə təmin edilməsi və bu xidmətlərin müxtəlif sosial qruplar, o cümlədən, aztəminatlı ailələr üçün sadələşdirilməsi əsas strateji xətt hesab edilmişdir. Eyni zamanda, əhalinin etibarlı sosial müdafiəsinin təmin edilməsi üçün bu istiqamətlərdə aparılan dövlət siyasəti daha əhatəli məna əks etdirir.

**Nəticə**

Makroiqtisadi meyyar və mövcud siyasi-iqtisadi reallıqlar ölkə vətəndaşının rifah ilə müəyyən edilir. Beləliklə sosial-iqtisadi tərəqqi və insan rifahının təşkili heç də çətin məsələ deyildir və bunun üçün dövlət tərəfindən uzunmüddətli dövrü əhatə edən strateji yanaşmalar olmalı, davamlı sosial-iqtisadi siyasət həyata keçirilməlidir. Davamlı iqtisadi tərəqqi və insan rifahının təminatı meyyarlarının, modelinin əsas istiqamətləri belə şəkildə səciyyələnir: davamlı siyasi-iqtisadi münasibətləri şərtləndirən, sosial-iqtisadi tərəqqi təmanatı.

**Ədəbiyyat**

1.İlham Əliyev “İnkişaf – məqsədimizdir”, 14-cu kitab, Azərnəşr, Bakı 2011.
2.D.İ.Allahverdiyev,“Dünya iqtisadiyyatı:İqtisadi mənafeylər, mövcud reallıqlar və perspektivlər.” Bakı 2021.
3. N.Məmmədov, “Geosiyasətə giriş” Bakı, “Azərbaycan nəşriyyatı”, Bakı. 2018,
4.İ.Alıyev “Milli iqtisadi tərəqqi modelinin formalaşması və pirinsipləri”, Baki. 2020.
5.F. Ə Əiyev“Azərbaycan elminin inkişaf perspektivləri”“Elm nəşriyatı”2018,
6. M.Heydəroğlu “Azərbaycanın iqtisadi əməkdaşlığı yeni müstəvidə” Bakı.2021

***D.I.Аллахвердиев***

***Макроэкономические критерии и текущие политико-экономические реалии***

***Резюме***

*Цель исследования-исследование в статье политико-экономического обеспечения страны и устойчивых тенденций роста благосостояния человека и устойчивого развития национального богатства. Вопросы обеспечения благосостояния граждан исследовались в науке и образовании как основное направление макроэкономического развития и социально-экономического прогресса. В анализе утверждены основные макроэкономические показатели критериев, характеризующих политико-экономическое состояние и прогресс страны в сложившихся условиях. Методология исследования изучена на основе сравнительного и аналитического анализа. Важность исследования состоит в том, что, как известно,*

*внешнеэкономические связи являются одним из факторов, играющих важную роль в развитии экономики страны и характеризуются повышением общей внутренней ответственности. В связи с этим в исследовании были предприняты усилия по анализу теоретических методологических основ экономической безопасности во внешнеэкономических связях и опыта экономического развития некоторых стран мира.*

***Ключевые слова:*** *наука инновации, экономическая политика, благосостояние человека и устойчивый прогресс.*

**_D.I.Allahverdiyev_**

**_Macroeconomic criteria and current political-economic realities_**

**_Summary_**

*The purpose of the study is to study the directions of sustainable growth of the country's political and economic security and human well - being and the development of sustainable national wealth. The issues of ensuring the welfare of citizens in science and education as the main direction of macroeconomic development and socio-economic progress were investigated. In the analysis, the main macroeconomic indicators of the criteria characterizing the political-economic situation and progress of the country in the current conditions were confirmed. The methodology of the study was investigated on the basis of Comparative and analytical analysis. The importance of the study, as it is known, foreign economic relations are one of the factors that play an important role in the development of the country's economy and are characterized by the growth of the overall domestic responsible. In this regard, in the study, efforts were made to analyze the theoretical methodological foundations of economic security in foreign economic relations and the experience of economic development of some countries of the world.*

***Key words:*** *science innovation, economic policy, human welfare and sustainable progress.*

**_Elmi redaktor: i.e.d. dos. Y.Məmmədov_**
**_Daxil olub: 05.12.2022._**
**_Çapa qəbul olunub: 12.12.2022._**